İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

İyul 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# "AZƏRBAYCAN RESPUBLİKASINDA İPOTEKA KREDİTLƏŞMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANINDA DƏYİŞİKLİKLƏR



"Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidenti tərəfindən 13 iyul 2017-ci il tarixli müvafiq Fərman imzalanmışdır.

Sözügedən Fərman çərçivəsində, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi" üzrə aşağıdakı dəyişikliklər edilməsi nəzərdə tutulmuşdur:

- Cəmiyyətin sərbəst pul vəsaitindən istifadəsinin yalnız aşağıdakı istiqamətlər üzrə həyata keçirilməsi:

- ipoteka kreditləşməsi üçün;
- müəssisələrin səhmlərinin (paylarının) və dövlət qiymətli kağızlarının əldə olunması üçün;
- banklarda depozitlərin yerləşdirilməsi üçün.

Bundan əlavə, Nizamnamənin "Daxili və kənar audit" hissəsi üzrə müvafiq dəyişiklər edilərək aşağıdakı redaksiyada təqdim edilməsi Fərman çərçivəsində həyata keçirilmiş dəyişikliklər arasında yer almaqdadır:

- Cəmiyyət daxili audit xidmətini təsis edir. Daxili audit və bu xidmətin işini icra edən şəxslər öz fəaliyyətlərində müstəqildirlər və öz funksiyalarını icra edərkən müstəqil qiymət vermək, nəticələr çıxarmaq hüququna malikdirlər.

- Cəmiyyətin daxili auditinin əməkdaşları "Daxili audit haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində nəzərdə tutulmuş tələblərə cavab verməlidirlər.

- Daxili audit xidmətinin əsas funksiyaları aşağıdakılardan ibarətdir:

- Cəmiyyətin, onun struktur bölmələrinin, idarə, nümayəndəlik və filiallarının, həmçinin törəmə cəmiyyətlərinin fəaliyyətinin Azərbaycan Respublikasının qanunvericiliyinə və Cəmiyyətin daxili qaydalarına uyğunluğunu yoxlamaq;

- Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin, habelə maliyyə vəziyyətinin dəqiq qiymətləndirilməsi məqsədi ilə bütün sahələrdə aparılan əməliyyatların mütəmadi auditini həyata keçirmək;

- Daxili audit yoxlamalarının nəticələri haqqında, habelə ortaya çıxmış çatışmazlıqların aradan qaldırılması üçün təkliflər barədə İdarə Heyətinin sədrinə məlumat vermək;

- "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanununda və bu Nizamnamədə nəzərdə tutulmuş digər funksiyaları yerinə yetirmək.

- Cəmiyyətin bütün müvafiq bölmələri və əməkdaşları daxili auditi həyata keçirən əməkdaşların tələbi ilə zəruri sənədləri onlara təqdim etməyə, öz vəzifələrinin icrası üçün zəruri şərait yaratmağa borcludurlar.

- Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin auditi Cəmiyyətin Müşahidə Şurasının və ya İdarə Heyəti sədrinin qərarı ilə həyata keçirilir.
- Cəmiyyət öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

- Eyni kənar auditorla ardıcıl 3 ildən artıq müddətə müqavilə bağlamaq olmaz.

Eyni zamanda, sözügedən Fərmanla təsdiq edilmiş "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda da aşağıdakı dəyişikliklər edilmişdir:

- güzəştli ipoteka krediti, yaşayış sahəsinin 1 kvadratmetri üçün hesablanan qiyməti güzəştli ipoteka kreditinin verilmə tarixinə Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri üzrə zonalarda, ölkənin digər şəhər və rayon ərazilərində orta bazar qiymətindən artıq olmayan yaşayış sahələrinin alınmasına verilməlidir;

- güzəştli ipoteka kreditinin məbləği kreditin verildiyi tarixə ipoteka ilə yüklü edilən yaşayış sahəsinin qiymətinin 90 faizindən, güzəştli ipotekaya aid olmayan kreditin məbləği isə 85 faizindən çox olmamalıdır.

Fərmana çərçivəsində, Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında da bir sıra tapşırıqlar qoyulmuşdur:

- Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasının üç ay müddətində təmin edilərək Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi;

- mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasının nəzarətdə saxlanılması və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi;

- bu Fərmandan irəli gələn digər məsələlərin həll edilməsi.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən də mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edərək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verməsi verilən tapşırıqlar arasında öz əksini tapmışdır.

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat